Azad Azərbaycan

8

24 sentyabr / 2020

# "Bakını tanıyaq, tanıdaq": Respublika Gənclər Kitabxanasının daha bir yeni layihəsi

***"Qoynunda qərinələr yanaşı duran Bakı! Məhəbbətlə, ilhamla yaradan, quran Bakı!"***

*Rəsul Rza*

**İnsanın ruhunu oxşayan, əziz, doğma şəhərimiz, günü gündən gözəlləşən Bakımız haqqında deyilən bu misraların müəllifi Rəsul Rzadır. Bu günə kimi Bakı haqqında çox yazılıb, çox deyilib, füsünkarlığına mahnılar qoşulub, nəğmələr söylənilib. Bakı müstəqil, azad bir məmləkətin baş şəhəri, paytaxtı, bizim qürur yerimizdir!**




Bakıda hansı tərəfə dönsən, hansı sahəyə baxsan, orada inkişaf görmək olar. Bu gün doğma paytaxtımız göz önündə dəyişən, müasirləşən, öz füsünkarlığına yeni çalarlar əlavə edən, Avropa və Asiyanın kəsişməsində yerləşən dünyanın ən cazibədar və kosmopolit şəhərlərindən biridir. Lakin Bakı qəlbində müasirliklə bərabər qədim tarixi köklərini də daşıyır. Və ölkəmizin, doğma şəhərlərimizin tarixini unutmamaq, əksinə böyüməkdə olan gənc nəslə aşılamaq biz - mədəniyyət sahəsinin nümayəndələrinin ən mühüm vəzifələrindən biridir.

Bu məqsədlə, Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası doğma Bakımıza həsr olunmuş "Bakını tanıyaq, tanıdaq" adlı layihəyə start verib və bu layihə çərçivəsində silsilə materiallar hazırlayaraq istifadəçilərə təqdim edib. Kitabxana əməkdaşları tərəfindən layihə çərçivəsində "Bakı mənim şəhərim", "Bakı bulvarı", "Qız qalası", "Bakı haqqında maraqlı faktlar" və s. başlıqlı materiallar hazırlanıb.

Hazırlanan materialların hər biri uzun müddətli araşdırmalar, tarixi faktlara söykənən məlumatlar əsasında yaradılıb. Lakin bununla yanaşı istifadəçilərin diqqətini cəlb etmək və yaddaqalan olmaq məqsədilə video çarxlar rəngarəng, müasir, əyləncəli və eyni zamanda maarifləndirici üslubda hazırlanıb. Video çarxlarda Bakı adının mənşəyi, tarixi, şəhər içində şəhər - İçəri şəhər, su üzərində nağıl - "Kiçik Venesiya", açıq havada qatar - Funikulyor, möcüzələr adası - Bakı Neft daşları, Bakı bulvarı, Bakı metrosu, Qız Qalası və s kimi məkan və tarixi abidələr haqqında maraqlı məlumatlar verilib. Həmçinin video çarxlarda Bakının uzun illər bir çox məşhur filmlərin çəkiliş meydançası olmasına, məhz Bakı memarlığında qədimlik və müasirliyin sintez təşkil etməsinə və s. dair fikirlər yer alıb.

**Bundan əlavə, Respublika Gənclər Kitabxanası Rəsul Rzanın "Bakı" şeri əsasında video çarx da hazırlayıb.**

**Tofiq SEYİDOV**